Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“05” iyun 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 23

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İNFORMASİYA TEXNOLOGİYALARI ƏMƏLİYYATLARI DEPARTAMENTİ HAQQINDA ƏSASNAMƏ

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının İnformasiya texnologiyaları əməliyyatları departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, Mərkəzi Bankın İdarə Heyətinin və daxili komiələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə, həmçinin dövlət orqanları (qurumları) ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi müasir standartlara cavab verən informasiya sistemlərinin etibarlı və davamlı fəaliyyət göstərməsi, habelə təhlükəsiz fəaliyyətinin təmin edilməsi, beynəlxalq aləmdə baş verən inkişaf meylləri nəzərə alınmaqla mövcud sistemlərin daim təkmilləşdirilməsi və informasiya texnologiyaları sahəsində innovativ həlləri tətbiq etməklə fəaliyyətin effektivliyinin təmin edilməsidir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. beynəlxalq aləmdə informasiya texnologiyaları sahəsində baş verən yeniliklərin davamlı olaraq izlənilməsi və xarici təcrübənin öyrənilməsi, müasir tələblərə cavab verən informasiya sistemlərinin daimi inkişaf etdirilməsi ilə bağlı təkliflərin verilməsi;

3.2. informasiya sistemlərinin texniki və proqram platformalarının etibarlı və davamlı fəaliyyətinin təmin edilməsi;

3.3. müvafiq konfiqurasiyalar vasitəsilə informasiya sistemlərinin digər sistemlərə inteqrasiyasının təşkil edilməsi;

3.4. Mərkəzi Bankda informasiya sistemlərinin modernləşdirilməsi ilə bağlı araşdırma və təhlil işlərinin aparılması, texniki tələblərin müəyyən edilməsi, texniki tapşırıqların hazırlanması və avtomatlaşdırma prosesinə cəlb edilməsi;

3.5. Mərkəzi Bankın layihə idarəetmə metodologiyasına uyğun olaraq informasiya texnologiyaları üzrə layihələrin icrasına dəstək verilməsi;

3.6. Mərkəzi Bankda istifadə olunan proqram təminatlarına dəstəkləmə xidmətinin göstərilməsi;

3.7. Mərkəzi Bankın əməkdaşlarının müvafiq texniki avadanlıqları ilə təchiz edilməsi, mövcud kompüter və printer parkının vəziyyətinin qiymətləndirilməsi və dəstəklənməsi, struktur bölmələrin texniki avadanlıqlarına olan ehtiyaclarının müəyyənləşdirilməsi və istifadədə olan kompüter və printer parkının mütəmadi olaraq yenilənməsi;

3.8. Mərkəzi Bankda istismarda olan korporativ informasiya sistemlərində elektron imzanın tətbiqinin təşkil edilməsi;

3.9. Mərkəzi Bankın xidmət göstərdiyi dövlət təşkilatlarına və maliyyə bazarlarında fəaliyyət göstərən nəzarət subyektlərinə, habelə nəzarət subyektlərinin xidmətlərindən istifadə edən fiziki və hüquqi şəxslərə elektron imza xidmətlərinin göstərilməsi;

3.10. maliyyə bazarlarında müasir tələblərə cavab verən informasiya texnologiyaları infrastrukturunun qurulması, innovativ həllərə əsaslanan elektron xidmətlərin genişləndirilməsi, xidmət və məhsulların rəqəmsal kanallar vasitəsilə əlçatanlığının artırılması üzrə metodoloji dəstəyin göstərilməsi;

3.11. maliyyə bazarlarının Mərkəzi Bankın müvafiq informasiya sistemləri ilə inteqrasiyasının konfiqurasiyalarının təmin edilməsi və yaradılmış mühitin davamlı fəaliyyətinin təmin edilməsi;

3.12. müvafiq dövlət orqanları, kütləvi xidmət müəssisələri və digər təşkilatların daxili informasiya sistemlərinin milli ödəniş sistemi infrastrukturuna inteqrasiyası üzrə tədbirlər görülməsi;

3.13. Mərkəzi Bankın kritik informasiya sistemlərinin fəaliyyətinin təşkil edilməsi;

3.14. Departamentin fəaliyyət istiqamətləri üzrə daxili reqlament sənədlərinin hazırlanmasında iştirak edilməsi;

3.15. Mərkəzi Bankın normativ-metodoloji sənədlərində nəzərdə tutulmuş informasiya texnologiyalarına dair digər səlahiyyətlərin yerinə yetirilməsinin təşkili;

3.16. Departament üzrə büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.17. informasiya texnologiyaları məsələlərinə dair Mərkəzi Banka daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.18. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələr və bölmələrdən ibarətdir:

4.1.1. İnformasiya texnologiyaları infrastruktur şöbəsi:

4.1.1.1. Şəbəkə inzibatçılığı bölməsi;

4.1.1.2. Sistem inzibatçılığı bölməsi;

4.1.1.3. Devops bölməsi;

4.1.2. Texniki dəstək şöbəsi;

4.1.3. Monitorinq şöbəsi;

4.1.4. Hesablaşma sistemlərinin təminatı şöbəsi;

4.1.5. Daxili sistemlərin təminatı şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətləri direktor müavininə (olduqda) həvalə edilir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəhbərlərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

### 5.1. İnformasiya texnologiyaları infrastruktur şöbəsi

5.1.1. informasiya texnologiyaları infrastrukturunun layihələndirilməsində, yaradılmasında, test rejimində sınaqdan keçirilməsində və istismara verilməsində iştirak edir;

5.1.2. Mərkəzi Bank üzrə informasiya texnologiyalarına tələbatın formalaşdırılmasını, habelə beynəlxalq standartlara uyğun olaraq informasiya texnologiyaları vasitələrinin yenilənməsini və inkişaf etdirilməsini təşkil edir;

5.1.3. hesablaşma sistemlərində qeydiyyata alınmış texniki nasazlıqları aradan qaldırır;

5.1.4. rəhbərliyin tapşırığı ilə Departamentin aidiyyəti fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Şəbəkə inzibatçılığı bölməsi:**

5.2.1. informasiya texnologiyaları infrastrukturun, şəbəkə və telefoniya sistemlərinin, həmçinin qeyd olunan əməliyyat sistemlərinin etibarlı və davamlı fəaliyyətini təmin edir;

5.2.2. Mərkəzi Bankın mərkəzi aparatı və bütün ərazi idarələrində lokal şəbəkə infrastrukturunun etibarlı və davamlı fəaliyyətini təmin edir;

5.2.3. Mərkəzi Bankın mərkəzi aparatı ilə bütün ərazi idarələri arasında mövcud olan telekommunikasiya şəbəkəsinin etibarlı və davamlı fəaliyyətini təmin edir;

5.2.4. Mərkəzi Bankın nəznində olan bütün server otaqlarında şəbəkə infrastrukturuna nəzarəti həyata keçirir;

5.2.5. şəbəkə infrastrukturu ilə bağlı yeni layihələrdə iştirak edir;

5.2.6. şəbəkə infrastrukturunun yenilənməsi ilə bağlı təkliflər təqdim edir;

5.2.7. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Sistem inzibatçılığı bölməsi**

5.3.1. informasiya texnologiyaları infrastrukturun, o cümlədən mərkəzləşdirilmiş server avadanlıqları və verilənlər bazalarının idarə edilməsi sistemləri, virtualizasiya həlləri, həmçinin əməliyyat sistemlərinin etibarlı və davamlı fəaliyyətini təmin edir;

5.3.2. verilənlər bazası üzrə yenilikləri tətbiq edir, versiya yüksəldilmələrini icra edir, daimi monitorinqi təşkil edir;

5.3.3. verilənlər bazasının idarəedilməsi üçün müvafiq texnoloji alətləri tətbiq edir;

5.3.4. məlumatların ehtiyat nüsxələrinin yaradılması və bərpa edilməsi üzrə işlər görür;

5.3.5. informasiya sistemlərinin fasiləsiz fəaliyətinin təmin edilməsi üçün Mərkəzi Bankın Ehtiyat Mərkəz(lər)ində fövqəladə hallarda əməliyyatların davamlılığı və fəaliyyətin bərpası prosedurlarını həyata keçirir;

5.3.6. informasiya sistemlərinin yaradılması zamanı “davamlı inteqrasiya və davamlı tətbiq” proseslərini həyata keçirir;

5.3.7. informasiya sistemlərinin ehtiyat surətlərinin idarə edilməsi işlərini həyata keçirir;

5.3.8. serverlərin əməliyyat sisteminin qeydiyyat jurnallarının vaxtaşırı analiz edilməsini və nasazlıqların aşkarlanaraq aradan qaldırılmasını təşkil edir;

5.3.9. Mərkəzi Bankın nəzdində olan bütün server otağlarına nəzarəti həyata keçirir;

5.3.10. sistemlərin fasiləsiz və etibarlı fəaliyyətinin təmin edilməsi üçün server otaqlarında texniki şəraitin tələblərə uyğun olmasına nəzarəti həyata keçirir, habelə istismar qaydalarına uyğun olaraq Mərkəzi Bankın Ehtiyat Mərkəzlərində işləri təşkil edir;

5.3.11. rəhbərliyin tapşırığı ilə Departamentin aidiyyəti fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

### 5.4. Devops bölməsi

5.4.1. informasiya texnologiyaları infrastruktur dəyişiklikləri üçün avtomatlaşdırılmış yayımlama sistemlərinin (pipeline) tətbiq edilməsi üzrə işləri görür;

5.4.2. “Davamlı İnteqrasiya/Davamlı Yayımlama" yanaşmasını informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik və informasiya texnologiyaları əməliyyat tələblərinə uyğunlaşdırır;

5.4.3. yayımlanmış mikroservislərin avtomatlaşdırılmış sənədləşmə sistemlərində qeydiyyata alınmasını təmin edir;

5.4.4. mikroservislərin fərqli versiyalarının eyni vaxtda işləməsinin dəstəklənməsi üçün müxtəlif yayımlama mexanizmlərini tətbiq edir;

5.4.5. proqram təminatının performansına təsir etmədən müvafiq mikroservislərin sıradan çıxa bilməsini təmin etmək üçün müxtəlif həlləri tətbiq edir;

5.4.6. proqram təminatlarının dəstəklənməsi və insidentlərin həllinin asanlaşdırması üçün zəruri loqların saxlanılmasını təmin edir;

5.4.7. rəhbərliyin tapşırığı ilə Departamentin aidiyyəti fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.5. Texniki dəstək şöbəsi:**

5.5.1. Mərkəzi Bankın inzibati binalarında, o cümlədən ərazi idarələrində və 2 nömrəli xəzinə saxlancında istismarda olan kompüter və ofis avadanlıqlarına “Help Desk” xidmətini göstərir;

5.5.2. Mərkəzi Bankda istifadə olunan kompüter, server və şəbəkə avadanlıqlarının, habelə proqram təminatlarının inventarlaşdırılmasında iştirak edir;

5.5.3. yeni alınmış kompüter avadanlıqlarını quraşdırır və sazlayır;

5.5.4. Mərkəzi Bankın kompüter parkında quraşdırılmış proqram təminatlarının dəstəklənməsini həyata keçirir;

5.5.5. Mərkəzi Bankda baş verən informasiya texnologiyaları ilə bağlı insidentlərin idarə edilməsi üçün Departamentin digər struktur vahidləri ilə birgə zəruri tədbirlər görür;

5.5.6. çıxdaş ediləcək kompüter avadanlıqlarına texniki baxış keçirir və rəylər hazırlayır;

5.5.7. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.6. Monitorinq şöbəsi**

5.6.1. 24/7/365 rejimində çalışan bütün sistemlərin monitorinqinin həyata keçirilməsi məqsədilə aşağıdakı tədbirləri yerinə yetirir:

5.6.1.1. monitorinq üzrə zəruri texniki və proqram təminatlarını tətbiq edir, onların etibarlı və davamlı fəaliyyətini təmin edir, o cümlədən proaktiv xəbərdarlıq həllərini sistemlərə inteqrasiya edərək fəaliyyətə nəzarət edir;

5.6.1.2. monitorinqi həyata keçirilən sistem komponentlərinin və xidmətlərin siyahısının formalaşdırılması, göstərilən xidmətlərin keyfiyyətinin və xidmət səviyyəsinin müəyyən edilməsi və monitorinqi ilə bağlı dəstəkləmə xidmətinin səviyyəsinin idarə edilməsi çərçivəsini formalaşdırır və aktuallığını təmin edir;

5.6.1.3. informasiya texnologiyaları və ödəniş sistemlərinin monitorinqini həyata keçirmək məqsədilə insident və problemlərin effektiv idarə edilməsi mexanizmlərini tətbiq edir;

5.6.1.4. sistemlərin iştirakçıları və müştəriləri ilə iki tərəfli kommunikasiya kanallarını yaradır və effektiv faəliyyətini təmin edir;

5.6.1.5. sistemlərin iştirakçılar tərəfindən istifadəsinin monitorinqini həyata keçirir;

5.6.1.6. monitorinq zamanı sistemlərin fəaliyyətində aşkarlanan insident və problemlərin aradan qaldırılması üçün ilkin tədbirlər görür və onların qeydiyyatını aparır;

5.6.1.7. sistemlərin fasiləsiz və etibarlı fəaliyyətinin təmin edilməsi üçün server otaqlarında texniki şəraitə nəzarəti həyata keçirir;

5.6.1.8. Bank Əməliyyat Sistemində (T24) "gün sonu əməliyyat" prosedurlarını yerinə yetirir, yaranmış səhvlərin dərhal aradan qaldırılmasına dəstək göstərir;

5.6.1.9. sistemlər üzrə müştərilərdən və iştirakçı təşkilatlardan qəbul olunan müraciətlər üzrə aşağıdakıları həyata keçirir:

5.6.1.9.1. Şöbəyə daxil olan müraciətləri qeydiyyata alır;

5.6.1.9.2. müraciətlərin sistemlər üzrə kateqoriyasını və prioritetliyini müəyyən edir;

5.6.1.9.3. müraciətlərin ilkin araşdırılmasını həyata keçirir və zəruri sorğular verir;

5.6.1.9.4. ilkin araşdırma nəticəsində müraciət öz həllini tapmadıqda, müraciəti aidiyyəti şöbəyə yönləndirir;

5.6.1.9.5. aidiyyəti şöbə tərəfindən cavablandırılmış nüraciətlər üzrə nəticəni müvafiq qaydada müraciətçiyə bildirir;

5.6.1.10. digər şöbələrlə birgə sistemlərin modernizasiyası və dəstəklənməsi işlərində iştirak edir;

5.6.1.11. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.7. Hesablaşma sistemlərinin təminatı şöbəsi**

5.7.1. Ödəniş sistemlərinin istismarını təmin etmək üçün fəaliyyət göstərən proqram təminatlarını idarə edir;

5.7.2. texniki həlli dəyişdirilməsi tələb olunan hesablaşma sistemlərinin təminatını idarə edir;

5.7.3. hesablaşma sistemlərinin digər sistemlərlə məlumat mübadiləsinin təmin edilməsi məqsədi ilə fəaliyyət göstərən ara proqramları idarə edir;

5.7.4. açıq bankçılıq sistemlərinin iştirakçı təşkilatlarla inteqrasiyasını təmin edir;

5.7.5. açıq bankçılıq sistemlərinin fasiləsiz işləməsini təmin edir, həmin sistemlərdə baş verən texniki insidentləri həll edir;

5.7.6. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.8. Daxili sistemlərin təminatı şöbəsi**:

5.8.1. informasiya sistemlərinin layihələndirilməsində, yaradılmasında, test rejimində sınaqdan keçirilməsində və istismara verilməsində iştirak edir;

5.8.2. informasiya sistemlərinin proqram təminatlarının inzibatçılığını həyata keçirir;

5.8.3. informasiya sistemlərinin tətbiqi-proqram təminatlarının və proqram platformalarının etibarlı və davamlı fəaliyyətini təmin edir;

5.8.4. informasiya sistemləri arasında əlaqə interfeyslərinin yaradılmasında iştirak edir;

5.8.5. informasiya sistemlərinin fəaliyyəti ilə bağlı insidentlərin idarə olunmasını həyata keçirir;

5.8.6. informasiya sistemlərinin proqram təminatlarının fasiləsiz fəaliyətinin təmin edilməsi üçün Mərkəzi Bankın Ehtiyat Mərkəz(lər)ində fövqəladə hallarda əməliyyatların davamlılığı və fəaliyyətin bərpası prosedurlarını həyata keçirir;

5.8.7. aidiyyəti struktur bölmələr ilə birgə informasiya sistemlərinin istismar qaydalarını hazırlayır;

5.8.8. Mərkəzi Bankda istifadə olunan proqram təminatlarının daim işlək vəziyyətdə saxlanılmasını təmin edir;

5.8.9. Mərkəzi Bankda istifadə olunan proqram təminatlarında yaranmış səhvləri aradan qaldırır, həll edilməsi üçün təchizatçıya müraciət edir;

5.8.10. sistemlərin yeni modifikasiya və versiyalarını təyin edilmiş vaxtlarda tətbiq edir;

5.8.11. Bank Əməliyyat sistemində (T24) "gün sonu əməliyyat" proseduru sonrası yaranmış səhvləri dərhal aradan qaldırır;

5.8.12. Bank Sertifikat Xidmətləri Mərkəzinin beynəlxalq standartlara və mövcud qanunvericiliyə müvafiq olaraq fəaliyyətini təşkil edir;

5.8.13. Mərkəzi Bankda istismarda olan korporativ informasiya sistemlərində elektron imzanın tətbiqini təşkil edir;

5.8.14. Mərkəzi Bankın xidmət göstərdiyi dövlət və kredit təşkilatlarına, habelə kredit təşkilatlarının müştəriləri olan fiziki və hüquqi şəxslərə elektron imza xidmətlərini göstərir;

5.8.15. elektron imzanın yaradılmasını, sertifikatların verilməsini və onun qüvvəsinin dayandırılmasını/bərpa edilməsini və ləğv edilməsini/geri çağırılmasını həyata keçirir;

5.8.16. sertifikat xidmətlərinin həyata keçirilməsi ilə bağlı müqavilələrin bağlanılması, təhvil-təslim aktlarının rəsmiləşdirilməsi və imza sahibləri haqqında məlumatların toplanılması, yoxlanılması, emalı və hesabatlığını təşkil edir;

5.8.17. imza sahibi haqqında məlumatları, sertifikatın seriya nömrəsini, sertifikatın qüvvədə olduğu müddəti, sertifikatın qüvvəsinin dayandırılması/bərpa edilməsi, ləğv edilməsi/geri çağırılması tarixi və səbəbləri özündə əks etdirən reyestri aparır;

5.8.18. elektron imzaların təhlükəsizlik qaydalarına uyğun olaraq saxlanmasını təmin edir;

5.8.19. elektron imza sertifikatlarının və daşıyıcılarının istifadəçilər tərəfindən istismarı zamanı təlimatların verilməsini təmin edir;

5.8.20. elektron imza üzrə sertifikasiya sistemində baş verən hər bir dəyişiklik və yeniliklər barədə imza sahiblərini xəbərdar edir;

5.8.21. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**